# “Əlincəqala” tarixi abidəsi bərpa olunub



Naxçıvan tarixin bütün dövrlərinə aid zəngin mədəniyyət və memarlıq nümunələri, dünya əhəmiyyətli tarixi abidələr, qədim yaşayış yerləri, qala və istehkamlarla zəngindir. Tarixən bu ərazidə yaşamış Azərbaycan türklərinin yaratdığı bu qədim tarixi-mədəni irsin qorunub saxlanması istiqamətində ardıcıl tədbirlər görülür, tarixi abidələr bərpa olunaraq keçmişdən bugünə körpü salınır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən “Əlincəqala” tarixi abidəsinin bərpa olunması da bu sahədə görülən işlərin davamıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aprelin 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Əlincəqalaya gəlib, burada görülən işlərlə maraqlanıb.

Məlumat verilib ki, bərpa işləri zamanı Əlincə dağının ətəyində müvafiq yer seçilib və “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyi üçün bina inşa olunub. Bina iş otaqları və ekspozisiya zalından ibarətdir. Ekspozisiya zalında Əlincəqalada məskunlaşan insanların həyat tərzini özündə əks etdirən maddi-mədəniyyət nümunələrinin, xüsusilə qədim məişət əşyalarının, pul və sikkələrin, kitab, jurnal və qəzet materiallarının nümayiş etdirilməsi üçün vitrinlər qoyulub. Bu da ziyarətçilərin qala sakinlərinin yaşayışı və qəhrəmanlıq tarixi haqqında ətraflı məlumat almasına imkan verəcəkdir.

“Əlincəqala” tarixi abidəsindəki qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerləri ilkin forması saxlanılaraq bərpa olunub. Qala divarları və bürclər əzəmətli görkəmi ilə Naxçıvan memarlıq məktəbinin qədim izlərini özündə yaşadır. Bərpa işləri zamanı qalanın zirvəsinə doğru yol çəkilib, qala ərazisində, eləcə də yol boyunca işıqlandırma sistemləri quraşdırılıb, oturacaqlar qoyulub və ətrafda yaşıllıqlar salınıbdır.

Tarixi yaşadanları tarix də yaşadacaqdır. “Əlincəqala” tarixi abidəsinin bərpa olunması da xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və bütün dünyada tanıdılması baxımından mühüm əhəmiyyət daşıyır. Qədim tariximizdən soraq verən, Naxçıvanın əyilməzlik və mübarizlik rəmzi olan “Əlincəqala” abidəsi möhtəşəm görkəmi ilə turistlərin ciddi marağına səbəb olacaqdır.

Ali Məclisin Sədri “Əlincəqala” abidəsində aparılan bərpa işlərinin əhəmiyyətini qeyd edib, “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin qalanın tarixi dövrlərinə aid eksponatlarla zənginləşdirilməsi barədə tapşırıqlar verib.